## ОБУЧЕНИЕ РАБОТА С НОВЫМИ СОТРУДНИКАМИ

***Байларова Садагат Айдын кызы, Мамедова Амаля Мамедага кызы***

***Резюме***

Тренировки с новичками должны помочь спортсменам быть в хорошей физической форме, знать правила и процессы игры, понимать базовые навыки технических приемов и тактики игры.

Как только новички приобретут необходимые навыки и привыкнут к основным техническим приемам игры, обучение станет лучше и эффективнее. В этом случае новички осваивают основные элементы тактических систем игры, проходят соответствующее обучение.

Одним из обязательных условий для продолжительности обучения с новобранцами является наличие в группах квалифицированного персонала. Однако, конечно, не все в этой группе подготовлены одинаково. Поэтому степень усвоения тренировочного материала разными спортсменами будет разной. Это означает, что одни люди изучают игру за короткое время, а другие за долгое время.

Как только новички приобретут необходимые навыки и освоятся с основными техническими приемами игры, обучение станет лучше и эффективнее. В этом случае новички осваивают основные элементы тактических систем игры, проходят соответствующее обучение.

***Rəyçi: Bədən tərbiyəsi və idman kafedrasının b/m Haqqverdiyev İlqar Arif oğlu***
***Bədən tərbiyəsi və idman kafedrasının 07.04.2021 tarixli iclasın 3 saylı pratakol.***
***Daxil olma tarixi 10 aprel 2021-ci il***

**UOT:37.01**.

## TƏDRİSDƏ TƏLİM PROSESİ

***Quluyeva Tahirə Qoca qızı, Əliyeva Nəsibə İslam qızı***
***Gəncə Dövlət Universiteti***
**eliyevanesibe@com.mail**

**Xülasə:** *Hər bir kəs özü tədris işini müstəqil şəkildə idarə etməyi bacarmalıdır. Bu istiqamətin düzgün aparılması tədris prosesində önəmli yerlərdən birini tutur. Xarici dillərin tədrisi cəmiyyətə daxil olmagı həyatın fərqli qaydalarını ənənələrini aşkar etməyi fərqli dəyərləri anlamağı aşılayır. Belə ki uğurlu kommunikasiya yalnız nitq vərdiş bacarıqlarından deyil eləcə də rəngarəng mədəni mövzuların anlaşılması və onlara hörmətlə yanaşma bacarıqlarından da söhbət açılır. Məhz bu bacarıqların və yanaşmaların formalaşmasında mədəniyyətlərarası dialoqlarin təşkil olunması böyük əhəmiyyət kəsb edir.*

**Acar sözlər;** kommunikasiya, bacarıq, sifahi nitq, təlim- tərbiyə prosesi, cütlərlə iş, interaktiv təlim metodları.

**Ключевые слова;** сообщение, способность , устной речь, процесс обучение и воспитание, работа с паром, методика взаимадействовать обучение.

**Key words;** communication, ability, oral speech, the prosess of teaching and education, work with pairs, the methods of interactive teaching.

Respublikamızın müstəqillik yolu ilə inkişaf etdiyi təhsil sisteminin ümumbəşəri dəyərlər və milli zəmin üzərində qurulduğu müasir dövrdə başqa sahələrdə olduğu kimi pedaqoji sahədə də yaxşı hazırlığa , mükəmməl biliyə və səriştəyə malik kadrların yetişdirilməsinə xüsusi fikir verilir. Belə bir şəraitdə gənc nəslin təlim- tərbiyəsi işini özünə

ixtisas secmiş gənc kadrlar əldə edilmiş yenilikləri dərindən bilməli, pedaqoji səriştə və ustalığa geniş erudusiyaya malik olmalı təlim –tərbiyə işinin imcəliklərinə yiyələnməli günün tələblərinə cavab verə biləcək səviyyədə bilik , bacarıq və vərdişlərlə silahlanmalıdır.

Respublikamızın siyasi, ictimai, mədəni və mənəvi həyatında hökm sürən böhranlı vəziyyəti xalq tərbiyəsinin mütərəqqi ənənələrini dircəltməyi onun demokratik və humanist məzmununu ətraflı öyrənib əməli fəaliyyətdə tətbiq etməyi zəruri hesab edir.Hər bir şəxs müasir təlim-tərbiyə sahəsindəki yenilikləri mənimsəməklə yanası xalqın dəyərli tarixi irsinə də dərindən yiyələnir nəticədə elə bir şəraət yaranar ki ,tərbiyə sahəsindəki tarixi və müasir irs dialektik vəhdət halında adamın ruhuna, qanına ana südü ilə birlikdə hopar tərbiyədə varislik prinsipi təmin olunar mütərəqqi tarixi təcrübə müasir cəmiyyətin mənəvi oyanışına, paklaşmasına, saflaşmasına köməklik göstərər(.Babayev.1992.səh61)

Xarici dilin praktiki tətbiqi—bu istiqamət xarici dillərin didaktikasında daha cox əhəmiyyət kəsb edir.Elə bir şəxsiyyətin tərbiyə edilməsi hansı ki müxtəlif dil mədəni identifikasiyası olan vətəndaşlarla birgə fəaliyyət göstərməyi bacara bilir

Əsas vərdiş bacarıq hansının inkişafı ilə kompleks xarakterli məsələlərin qrup və ya fərdi şəkildə iş formatında həll edilməsi bu istiqamətdə inkişaf etməlidir.

İngilis dilinin tədrisi prosesində kommunikativ metodika bir qayda olaraq, öyrənilən dilin dərk edilməsi baxımından kommunikativ oyunlarda tətbiq olunur. Bu baxımdan kommunikativ oyunların başlica məqsədi, qarşıya qoyulmuş kommunikativ tapşırığın və ya problemin həlli prosesində xarici dildə münasibətə, danışığa nail olmaqdır. Bu oyunlar təbii şəkildə yaranmış prosesdə rəngarəng əyani vəsaitlərdən, dil materiallarından, danışıq situasiyalarından geniş şəkildə istifadə etməyə imkan yaradır. Metodik nöqteyi—nəzərdən kommunikativ oyunlar, təlim dili fəaliyyətini özündə birləşdirən tapşırıqları əhatə edir. Kommunikativ tapşırıq, oyuncular arasında qarşılıqlı danışıq prosesində yaranmış fikir və informasiya mübadiləsidir.

Müasir təlim metodikasının tədris prosesinin geniş şəkildə tətbiqi şagirdlərə tədris edilən fənnin qavranılmasında, dərk edilməsində, oyunların qruplarla, cütlərlə işləməyə imkan yaradır.Məsələn, xarici dillərin tədrisi prosesində ziqzaq metodu qruplarla iş ücün cox əhəmiyyətli metoddur. Şagirdlərin əldə etdikləri məlumatın həm fərdi, həm də qrup halında müzakirə edərək xarici dildə ifadə etmələri, şifahi nitqin, düşünmənın , dərk etmənin və eyni zamanda yadda saxlamanın inkişafına təkan vermiş olur. Hər bir şagird həm düşünür, həm də düşündürür. Müasir dövrün tələblərinə uyğun olaraq , təlim və tədris prosesində müasir o cümlədən interaktiv təlim metodları və yeni pedaqoji texnologiyanın tətbiqi ilə tədrisin səmərə və keyfiyyətinin yüksəldilməsi cox mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyətin bütün maddi və mənəvi nemətlərini yaratmaq sahəsində həlledici rol xalqa məxsus olduğu kimi ,pedaqogika tarixində də xalqın rolu fəaldır, həlledicidir. Xalq mənəvi sərvətlərin yeganə və tükənməz mənbəyi, öz yaradıcılığının vaxtı, gözəlliyi və dərinliyi etibarı ilə birinci yerdə duran pedaqoqdur.

Hamı üçün ümumi olan tək bircə fikir vardır ki ,təvbiyə ona hər zaman arxalana bilər , buna biz xəlqilik adı veririk---- tərbiyə əgər gücsüz olmaq istəmirsə ,xəlqi olmalıdır.( S. Abbasova.2015.səh. 21-23)

Müasir müəllim öz tədris etdiyi fənnin təlimi prosesində bütün metod və üsullardan istifadə etməlidir. Müasir dərs pedaqoji –psixoloji elmlərin ən yeni biliklərinə söykənməlidir. Yəni dərsdə təfəkkür, hafizə, təxəyyül, hisslər formalaşmalıdır. Şagird təlim -tərbiyə prosesinin subyekti kimi götürülməlidir.

Müəllim koqnitiv nitqi inkişaf etdirməli və interaktiv metodlarla işləməlidir. Müəllim hər bir şagirdin çatışmazlığını, dərk etməsini, qabiliyyətini, gücünü və s, nəzərə alaraq fərdi işləməyi bacarmalıdır. Bütün sinfə eyni sözü deyən müəllimin əməkdaşlığı qeyri normal hesab oluna bilər.

Bu baxımdan qruplarla və cütlərlə iş xarici dilin tədrisində cox əhəmiyyətli məsələlərdən biridir. Müəllim dərsi elə qurmalıdır ki, şagirdlər qrupda işləmənin üstünlüyünü başa düşsünlər və məqsədə uyğun olduğunu dərk etsinlər.Qruplarda işin müvəffəqiyyətli olması üçün şagirdin qabiliyyətini inkişaf etdirib üzə çıxardan dərsi qurmaq lazımdır.Məsələn ,dinləmə , danışıq. Lakin bununla yanaşı iş prosesində digər qabiliyyətlərdən də istifadə etmək vacibdir bir qabiliyyətlə kifayətlənmək olmaz.

Qarşıya qoyulmuş məqsədə çatmaq üçün qruplarla iş tətbiqi vacib olan bir üsuldur.Sinif qruplara bölünür.Hər bir qrupa öz secdiyi ad verilir.Müəllim eyni tapşırığı 2-3 qrupa eyni zamanda verə bilər. Tapşırığın hazırlığı mərhələsi müəllim tərəfindən keçirilir. Şagirdlər rast gələ biləcəkləri yeni sözlərlə müəyyən üsullarla tanış olurlar.Buna misal olaraq bildikləri sinonimlərin köməyi ilə müəllim nümayiş etdirdiyi şəkillər vasitəsilə köhnə biliklərin tətbiqi vasitəsilə daha sonra müəllim mətni şagirdlərə paylayır. İş prosesi adətən diskussiya şəklində müxtəlif nöqteyi –nəzərlərdən həyata kecirilir. Şagirdlər qrup və ya cutlərlə diskussiyalar дпарарırlar öz secimlərini izah edirlər fikirlərini əsaslandırarlar.

Qrup haında işi aşağıdakı variantlarda kecirmək mümkündür.

1. Şagirdlər sərbəst işləyirlər mövzu ətrafında öz mülahizələrini qeyd edirlər. Sonra bu mülahizələr cütlər və kicik qruplarda və bütöv qruplarda müzakirə olunur.

2. Kiçik qruplarda işləyən şagirdlər ümumi bir fikrə gəlməyə çalışırlar. Həmin fikir yekun kimi ümumi müzakirəyə təqdim edilməlidir.Həmcinin bu fikir faktlarla əsaslandırılmalıdır.

3. Eyni cavab variantı olan şagirdlər bir qrupda toplanır ki onlar öz variantlarını bir çox arqumentlərlə əsaslandırmağı bacarırlar. (A. Tahirov 1978 səh 71-73)

Qrupun işinin düzğün təşkili müəllimin qarşıya qoyduğu məqsədə çatmasına tam şərait yaradır. Qrup işinin təşkili mərhələsi aşağıdakılardan ibarətdir. Belə faəliyyətin qrup prosesinə tam uyğun olduğu müəyyənləş-dirilməlidir. Elə tapşırıqlar var ki qrup işinə uyğun deyil cütlərin işinə cox münasibdir.

Qısa müddətdə tam şəkildə fəaliyyətin məqsədini və əldə olunacaq nəticənin məzmunu şagirdlərə başa salmaq.

Hər bir qrup üzvünün rolunu izah etməli.

Sinfi qruplara bölməli.

Təqdimat verib rolları müəyyənləşdirməli. Hər bir şagirdin təqdimatı düşdüyünə əmin olmaq üçün onlardan təqdimatı təkrar etməni xahiş etmək lazımdır.Vaxtı müəyyən etmək lazımdır.

Şagirdlərin sualları olduqda tapşırığı yüngülləşdirmək məqsədilə əməkdaşlıq və rəhbərlik etmək fikirləri öyrənmək məqsədə uyğun hesab etmək olar.

Vaxtın bitdiyini elan etməli.

Xalqın özü tərəfindən yaradılmış və xəlqilik əsasında qurulan təlim –tərbiyə mücərrəd ideyalar və başqa xalqlardan alınmış ideyalar üzərində qurulmuş ən yaxşı tərbiyə metodları böyük əhəmiyyət kəsb edir. Yalnız xalq tərbiyəsi xalq inkişafının tarixi prosesində canlı üzvdür.

Doğrudan da, yalnız xalq tərəfindən yaradılan xalq dühasına əsaslanan tərbiyə qiymətlidir.

Şagirdlərin zehni, mənəviyyatı milli xəlqi əsasda cilalanarsa, keçmişin parlaq inciləri, zəhmətkeş kütlələrin mütərəqqi pedaqoji irsi müasir dövrün fikri mündəricəsi ilə onlara aşılanarsa, onda gənc nəslin nümayəndələri ulularımızın “Uşaqkən elə yaşa cavanlıqda sözün olsun, Cavanlıqda elə yaşa qocalanda gözün olsun” kəlamındakı pedaqoji–fəlsəfi mənanı özlərinin fəaliyyət proqramına çevirməyə çalışarlar.

Hər bir müəllim təlim prosesini daha şüurlu və dəkedilən olmasını gücləndirmək onun intellektual və məntiqi səviyyəsini yüksəltmək üçün əlindən gələn bütün bacarıqlardan istifadə etməlidir.Hər bir pedaqoq təlim motivasiyasını gücləndirməli, informasiya

kanallarının ötürmə qabiliyyətini əhəmiyyətli dərəcədə yuksəltməli, təlim prosesində yeni idrak vasitələri, hesablama eksperimentləri, öyrənilən obyekt və hadisələrin modelləşməsi ,təlimin motivasiyasının gücləndirilməsi ,təlim fəaliyyətinin diaqnostikası və qiymətləndirilməsinin həyata kecirilməsinə nəzarət etməlidir. (Veyisova Z. 2009.səh 92-93)

Təhsil sistemi cəmiyyətin fəaliyyətinə, fəal təsir göstərən spesifik xüsusiyyətlər olmaqla yanaşı cəmiyyətdə mövcud vəziyyəti qabarıq şəkildə əks etdirməyə qadir olan bir termindir. Hər bir inkişafda həlledici rola malik olan təhsil cəmiyyətin inkişaf səviyyəsini , respublikada baş verən proseslərin mahiyyətini özündə əks etdirən başlıca amildir.Dünyanın bir çox ölkələrində elmə və tədrisə ümumiyyətlə təhsil sisteminə xüsusi diqqət və qayğı göstərilir,bu sahənin necə bir əhəmiyyətli və vacib bir sahə olduğu diqqətə çatdırılır.

Son mərhələdə şagirdlərin biliyi qiymətləndirilməlidir. Qrupla əməkdaş-lığın təlim prosesində əhəmiyyəti nədən ibarət olduğu aydın verilməlidir. Məsələn əgər şagirdlər qavrama qabiliyyətinə görə qruplara bölünübsə mövzu ilə əlaqədar düşündürücü suallar secmək, hər qrupun suallarını paylamaq, və cavablarını yazılı şəkildə yığmaqla istər kecən sorğunu və istərsə də yeni dərsin mənimsənilməsi vəziyyətini aşkar etmək olar.Qruplar şagirdlərin özləri tərəfindən qiymətləndirilsə, öz fikirlərini əsaslandırmaqla hər bir şagirddə özünə inam yaranaraq müəllim şagird münasibəti pozulmaz. Şagirdlərdə diqqət, hafizə, nəticə çıxarma və s formalaşar.

Yadda saxlamaq lazımdır ki , qruplarla iş tədricən tətbiq olunmalıdır. İlk dəfə üçün yalnız bir fəaliyyəti beş dəqiqə müddətində keçirilə bilər,daha sonralar isə cütlərlə və qruplarla isə daha cox vaxt sərf edilə bilər.

Qruplarla iş vaxtı ənənəvi müəllim nəzarətində olan sinif daima diqqət mərkəzində olur. Şagirdlərə yaradıcılıq imkanlarını üzə çıxarmaq üçün sər-bəst davranışa icazə verilir. Qorxu hissi , inamsızlıq, zəif, güclü şagird anlayış--ları ikinci plana kecir. Həm şagirdlər , həm də müəllim dərs prosesində tam sərbəst olur.

Müəllim eyni zamanda xüsusi peşə keyfiyyətlərinə pedaqoji təcribəyə, təmkinliliyə, səbirliliyə, pedaqoji peşə təfəkkürünə ,səbəb-nəticə əlaqələrini araş-dırmaq bacarığına, özfəaliyyətini təhlil etmək, müvəffəqiyyətini və nöqsanını elmi cəhətdən əsaslandırmaq və fəaliyyətinin nəticəsini əvvəlcədən görmək bacarığına malik olmalıdır. (A. Tahirov.1978. səh 110-111)

***Ədəbiyyat***

1. Babayev A. Dilciliyə giriş. 1992.
2. Abbasova S. İngilis dilinin tədrisi metodikasında müasir təlim metodları. Bakı 2015.
3. Veyisova Z. Fəal interakiv təlim . Müəllimlər üçün vəsait.2007.
4. Kazımov N. Məktəb pedaqoqikası Bakı 2002.
5. Tahirov A. Orta məktəbdə ingilis dilinin tədrisi metodikası. Bakı 1978.

## УЧЕБНЫЙ ПРОЦЕСС В ОБРАЗОВАНИЕ

***Алиева Насиба Ислам кызы, Гулиева Тахира Годжа кызы***

***Резюме***

В этой статья говорится о преподавании иностранного языка и его роли в обществе . Изучение языков играет важную роль в будущем молодого покаления а также в выборе правильной жизни и карьеры. Чтобы повисить интерес к изучению иностранных языков и свободно говорить на них в наши дни имеются широкие возможности и прог—рессивных методов. Каждый учитель должен иметь возможность использовать все предоставление инструменты. Каждый учитель должен иметь пользоваться всемы предоставленными средствами.

## THE EDUCATION PROSESS OF TEACHING

*Aliyeva Nasiba Islam, Quliyeva Tahira Qoja*

***Summary***

This article deals with the importance of teaching of foreign languages and its role in our society. Generally learning foreign language is an important goal for young generation and when they would chosen their career it is very urgent problem. They have got a good chance to learn and to speak this language and in this way they can get great success .Nowadays every teacher has to answer all these questions and they able to gain good luck in their life.

***Rəyçi: dos. Əliyeva Zahirə***
***Praktik xarici dillər kafedrasının 28 yanvar 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 02 fevral 2021-ci il***

**UOT:159.9**

## NIZAMİ YARADICILIĞINDA BƏŞƏRİ HİSLƏRİN TƏRƏNNÜMÜ

***Həmidova Güntəkin Allahverdi qızı***
***Gəncə Dövlət Universiteti***
***gceferova@rambler.ru***

**Xülasə:** *Nizami Gəncəvi ilk növbədə insan psixologiyasını, ona xas olan insani hissləri-təvazökarlığı, zəhmətsevərliyi, əxlaqi keyfiyyətləri, ümumbəşəri məna kəsb edən zəhmət, namus, mərdlik, cəsarət kimi xüsusiyyətlərin məhz bəşər övladına məxsus olduğunu əsərlərində tərənnüm etmişdir.*

*Nizami Gəncəvinin əsərlərindən görürük ki, o, insan psixologiyasının mahir bilicisidir. Şair, həmçinin, poemalarında insanın ictimai-siyasi-psixoloji vəziyyətini ustalıqla vəsf etmişdir.*

*Nizami Gəncəvi şeirlərində əməkçi insanları yüksək dəyərləndirmiş və onları başqa qəbildən olan insanlara nümunə göstərmişdir.*

**Açar sözlər**: şair, psixologiya, bəşər, psixoloji hislər, hünər, cəsarət, alim, tərənnüm etmək, oxucu, dünya ədəbiyyatı, ictimai-siyasi-psixoloji, bədii, doğma xalq, millət.

**Ключевые слова**: поэт, психология, человечество, психические чувства, отважность, учёный, воспевать, читатель, мировая литература, общественно-политический, художественный, родной народ, нация.

**Key words:** poet, psychology, humanity, psychological feelings, courage, bravery, scientist, to glorify, reader, world literature, socio-political psychology, fiction, world people, nation.

Xalqımızın böyük oğlu, bədii və fəlsəfi fikrimizin nurlu əbədiyyətini yaradan peyğəmbər şairimiz Nizami Gəncəvi yalnız Azərbaycan xalqına deyil, həm də bütün bəşəriyyətə mənsub sənətkardır. Dahi şairin əsərlərində böyük ustalıqla tərənnüm edilən istək və arzular, məhəbbət, insanpərvərlik, ədalət, hünər, cəsarət və mərdanəlik, səbr və təmkin bəşər övladına mənsub insani hiss və duyğulardır ki, Nizami bütün əsərlərində onları vəsf etmişdir. Şairin poemalarını oxuyarkən, istər-istəməz onun insana, insanın ucalığına verdiyi qiymətdən heyrətə gəlməmək mümkün deyildir. Təsadüfi deyildir ki, Nizami insanı yer üzünün əşrəfi sayır.

Ümumbəşəri, mütərəqqi ideyalar tərənnümçüsü olan Nizaminin humanist fikir və düşüncələrini ifadə edən, özünün orijinallığı və bədii təfəkkür yetkinliyi ilə oxucularını